**525-ci qəzet**. - 2024. - 18 aprel. - № 66. - S. 15.

# Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: aktuallığını itirməyən tədqiqat obyekti

**Mehriban Sultan,**
AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru

***(əvvəli ötən sayımızda)***

"Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" seriyasından dördüncü kitabın "Ədəbiyyatşünaslıq və əlyazmaşünaslıq" adlı II bölməsində Azərbaycan ədəbiyyatı, mətbuatı və teatrı tarixində özünəməxsus yeri olan, mollanəsrəddinçi ədəbi məktəbinin tanınmış siması Əliqulu Qəmküsar, onun mollanəsrəddinçi publisistik, ictimai-siyasi fəaliyyəti ilə bağlı məlumatlar maraq doğurur. "Fəhlə şair" məqaləsində çilingər Hüseyn Fərəcoğlunun həvəskar şair kimi uğurlarından, satirik poetik yaradıcılığından bəhs olunur. "Mirzə Cəlil Şürbinin bəzi qəzəllərinin əlyazma variantları" məqaləsi isə Şürbi təxəllüsü ilə şeirlər yazan müəllim Mirzə Cəlil Mirzəyevin (1874-1915) yaradıcılığı haqqındadır. Müəllif şairin Müzəffər Nəsirlinin arxivində saxlanılan qəzəllərini əsl əlyazmaşünas kimi tədqiq edir, əlyazma nüsxələləri arasındakı uyğunsuzluqları ortaya çıxarır. Şəxsi elmi təcrübəsinə söykənərək isnad edilən mənbəyə sərbəstliklə yanaşmanın mətnşünaslıqda qəbuledilməz olduğunu qeyd edir ki, bu da ədəbiyyatşünaslıqda və əlyazmaşünaslıqda xüsusi diqqət yetiriləcək məsələdir. Şair-publisist Müzəffər Nəsirli və akademik İ.Həbibbəylinin elmi əsərlərində Şürbi yaradıcılığından nümunə verdikləri beytlərlə Ağa Ağayevin üzünü köçürdüyü nüsxələr arasında maraqlı müqayisələr apararaq şairin poetik yaradıcılığı, ədəbi əsərlərin orijinalı ilə bağlı düzgün elmi qənaət ortaya qoyur.

Kitabda əlyazmaşünaslıq, mətnşünaslıq baxımından arxeoqrafik sənəd (qədim dövrə aid müxtəlif fərmanlar, əmrlər, hökmlər, qəbalələr (alqı-satqı sənədləri), şəhadətnamələr və digər sənədlər) anlayışı haqqında ilk dəfə geniş elmi məlumat verilir, Əlyazmalar Fondunda mühafizə olunan arxeoqrafik sənədlərin naxçıvançünaslıq üçün, müxtəlif elm sahələrinin mütəxəssisləri üçün ən etibarlı ilkin mənbə kimi mühüm əhəmiyyətə malik olduğu diqqətə çatdırılır. Əlyazmlar Fondunda mühafizə olunan qədim ərəbdilli əlyazmalar haqqında da kitabda ayrıca bəhs edilir. Müəllif 500 il bundan əvvələ aid, Qurani Kərimin bəzi ayələri və məşhur dua nümunələri toplanan kiçik kitabça kimi ən qədim əlyazmadan tutmuş fondda qorunub saxlanılan 600-dən artıq qədim əlyazma və çap kitabları, onların kataloqlaşdırılması, tədqiqi və nəşri haqqında da müfəssəl məlumat verir ki, bu mənada yeni nəşri həm də AMEA Naxçıvan Bölməsi və onun Əlyazmalar Fondunun uğurlu elmi hesabatı kimi də xarakterizə etmək olar.

"Naxçıvan ədəbi mühitində gündəlik və xatirə janları" adlı məqalədə Azərbaycan memuar ədəbiyyatının qiymətli nümunələrindən olan, görkəmli ədəbiyyatşünas, professor Əziz Şərifin, maarifpərvər ziyalılardan Mirzə Bağır Əliyevin, Lətif Hüseynzadənin, Azərbaycan Respublikasının Əməkdar müəllimi, tarix elmləri namizədi, dosent Əli Əliyevin, Əli Səbrinin, akademik Məmməd Cəfər Cəfərovun, professor Yavuz Axundlunun bu janrlarda yazdıqları əsərlər elmi-ədəbi təhlilə cəlb olunub. Təkcə ayrı-ayrı şəxslərə məxsus gündəlik və xatirələr deyil, Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndəsi olan şair və yazıçılarımızla bağlı xatirələrin kitab şəklində toplu halında nəşr olunması, mühüm elmi, ictimai-mədəni əhəmiyyətə malik Naxçıvan Dövlət Universiteti, "Şərq qapısı" qəzeti, Naxçıvan teatrı haqqında da xatirələr toplusu formalaşdığı diqqətə çatdırılır. Müəllif bu qənaətə gəlir ki, XIX əsrin 90-cı illərindən bu günədək olan dövrü əhatə edən bu gündəlik və xatirələr, ümumilikdə, Naxçıvan elmi, ədəbi, mədəni mühitinin güzgüsüdür, xüsusilə də bunların əksəriyyəti 1918-20-ci illərdə erməni daşnaklarının Naxçıvanda törətdiyi faciələri, naxçıvanlıların onlara qarşı qəhramancasına mübarizə apararaq doğma yurdlarını vətənpərvərliklə qorumasını əks etdirmək baxımından Naxçıvanın hərtərəfli öyrənilməsi üçün əhəmiyyət kəsb edir. Bu bölmədə 1925-1937-ci illər arasında Naxçıvan diyarının müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar və ekspedisiyalar haqqında ətraflı məlumat verən ölkəşünas Mirbağır Mirheydərzadənin əlyazmasının elmi-tarixi əhəmiyyəti, görkəmli şair-dramaturq, publisist və tərcüməçi Hüseyn Razinin "Gündəlik"lərinin makina variantları və əlyazma nüsxələrinin müqayisəli təhlili, orijinal xüsusiyyətləri də oxucuların diqqətinə çatdırılır. Bu bölmədə memuar ədədbiyyatı janrında yazılan publisistik nümunələr məzmun və formasına, ideya və üslubuna görə təhlil olunur, müasir dövrdə də memuar ədəbiyyatının ictimai-elmi aktuallığını səciyyələndirir, eyni zamanda bir-biri ilə sıx bağlı olan bu nümunələr janr xüsusiyyətlərinə görə bir-birindən dəqiqlik və incəliklə ayrılaraq təhlil süzgəcindən keçirilir.

"Mətbuat, maarif və mədəniyyət" bölməsi Şərqin ilk satirik mətbu orqanı olan "Molla Nəsrəddin" jurnalı ilə Naxçıvanın 100 ildən artıq tarixə malik "Şərq qapısı" qəzetinin ədəbi əlaqələri, "Molla

Nəsrəddin"in Naxçıvandakı ictimai-siyasi proseslər, baş verən hadisələr ilə məhz "Şərq qapısı" vasitəsi ilə xəbərdar olub informasiya mənbəyi kimi bu qəzetə istinad etməsi, "Şərq qapısı" qəzetinin "Molla Nəsrəddin" vasitəsilə daha geniş coğrafi arealda tanınması və sevilməsi kimi elmi yenilikləri ilə xüsusi maraq doğurur. Ustad Mirzə Cəlil və "Molla Nəsrəddin" jurnalı zəngin təcrübəsi ilə "Şərq qapısı"na jurnalist sənətkarlığı, tərtibat, operativlik və obyektivlik, ziyalı mövqeyinə və əqidəsinə ehtiram örnəyi olub. Tədqiqatdan öyrənirik ki, "Şərq qapısı" qəzetində də satirik janrda publisistik yazılar, felyetonlar dərc olunub, "Poçt qutusu" rubrikasının ənənələrindən də məharətlə bəhrələnilib. Mollanəsrəddinçi karikaturaçı rəssam Oskar Şmerlinqin müəllif tərəfindən ilk dəfə olaraq aşkar edilən, "Şərq qapısı"nda dərc olunan iki karikaturası haqqında məlumat da xüsusi maraq doğurur. Araşdırmalardan bu elmi qənaətə gəlmək olar ki, mollanəsrəddinçi ədəbi məktəbi "Şərq qapısı"na yaradıcı təsiri ilə də özünü doğruldub. Bu bölmədəki digər məqalədə müəllif "Şərq qapısı" qəzetinin nəşri tarixi, baş redaktorları, redaksiya heyəti, fəaliyyət istiqamətləri ilə bağlı elmi faktlar vasitəsilə sübut edir ki, "Şərq qapısı" sovet ideologiyasının təbliği məqsədilə yaradılsa da, rejimin imkanları çərçivəsində zəngin maarifçilik ənənələrini davam etdirən, milli-mənəvi dəyərlərimizi yaşadan və təbliğ edən mətbu orqan olub. Bu elmi qənaətə gəlinir ki, qəzet nəşrinin ilk illərində xüsusilə ciddi dövlət nəzarəti altında fəaliyyət göstərmiş, qəzetin təşəkkül və inkişaf yolu çox çətin, keşməkeşli olmuşdu. Yeni nəşrin bu bölməsində ustad pedaqoq, Azərbaycan Respublikasının Əməkdar müəllimi Həsən Axund Molla Xəlil oğlu Qazıyev haqqında tərcümeyi-hal xarakterli yeni elmi faktlar da təqdim edilir ki, bu da milli pedaqogika tariximizin araşdırılmasına töhfələr verə biləcək yeni elmi-tədqiqat mövzularının ərsəyə gəlməsinə səbəb olacaq. Seyid Səbrinin 1968-ci ildə qələmə aldığı, yazılandan 50 il sonra müəllif tərəfindən aşkar edilərək çap olunan "Qansoranlar" pyesinin siyasi dramaturgiya nümunəsi kimi elmi-ədəbi təhlili də diqqəti cəlb edir. Pyes ötən əsrin 70-ci illərində Naxçıvan ədəbi mühitində meydana çıxan, qonşu ölkənin siyasi tarixinə münasibət bildirən dəyərli əsər kimi qiymətləndirilməyə layiqdir.

"Müsahibə, rəy və təəssüratlar" adlanan sonuncu bölmədə müəllifin Naxçıvanda fəaliyyət göstərən Tədqiq və Tətəbbö Cəmiyyətindən bəhs edən "Naxçıvanı öyrənən elmi cəmiyyət" kitabı ilə bağlı Naxçıvan Dövlət Televiziyasına verdiyi müsahibə, Əməkdar mədəniyyət işçisi Sübhi Kəngərli, İkinci Dünya müharibəsi qəhrəmanlarından Əqil Qazıyev haqqında olan portret oçerklər, müəllifin şəxsi "Gündəliy"indən 1976-cı ilin oktyabr ayında Xalq şairi Səməd Vurğunun 70 illik yubleyinin Naxçıvanda geniş şəkildə qeyd olunması, şairin oğlu Vaqif Səmədoğlunun yubileydəki çıxışı ilə bağlı xatirələri, "Ədəbiyyat dərslərində təsadüf olunan çətin sözlərin izahlı lüğəti"nin müəllifi Quşdan Bağırova açıq məktubu filologiya elmləri doktoru Fərman Xəlilovun elmi-ədəbi ictimaiyyətdə baş verənlərə vaxtaşırı fəal vətəndaş və ziyalı mövqeyi bildirməsi baxımından maraq doğurur.

Elmi redaktoru AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, rəyçisi filologiya elmləri doktoru, professor İslam Qəribli olan, "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" seriyasından oxuculara təqdim edilən dördüncü kitab, ümumilikdə, bir daha bu qənaətə gəlməyə əsas verir ki, Naxçıvan tarixən maarifçilik hərəkatının beşiyi, siyasi ideya məxəzi, milli şuurun pərvəriş tapdığı mərkəz olduğu kimi, Azərbaycan elmi, mədəni və ədəbi mühitinin də əsas inkişaf mənbəyidir. Bu qədim diyarda elmi, ədəbi və mədəni mühitin yaranması və inkişaf mərhələləri haqqında qiymətli mənbə olan yeni nəşr Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinə, bütövlükdə, Naxçıvanşünaslığa qiymətli elmi töhfə sayıla bilər.